## Cabbarlışünas alim, filologiya elmləri doktoru, professor Asif Rüstəmli haqqında görkəmli adamların fikirləri



*Qulam Məmmədli və Asif Rüstəmli.*
*30 avqust 1985-ci il, Bakı*

"İmzalar" kitabını "gələcək ədəbi fəaliyyəti məni ümidvar edən gənc ədəbiyyatşünas Asifə yadigar verirəm və ona bu nəcib və çətin işdə müvəffəqiyyət arzulayıram".

**Qulam Məmmədli,**
***publisist, teatrşünas, salnaməçi***



1989-cu ildə avtoqrafla Asif Rüstəmliyə bağışladığı yenicə işıq üzü görmüş "Meyar şəxsiyyətdir" kitabında bu sözləri yazmışdı:

Daxili – mənəvi mədəniyyətinə böyük hörmət etdiyim, elmi gələcəyinə inandığım, ümid bəslədiyim əziz Asifə! Mən bütün elmi gəncliyimizi belə sadə, belə zəhmətkeş görmək istərdim, Asif!

***

Tənqidçi, ədəbiyyatşünas alim Y.Qarayev Asif Rüstəmlinin "Çırpınırdı Qara dəniz" səfərnaməsinə ön sözündə yazırdı: Dünyada ayağını dörd dənizə möhkəm dayayan və başını göyün dördüncü qatına söykəyən firavan, azad, məğrur, suveren bir Türkiyə var və bütün Şərq, bütün dünya onunla fəxr eləyə bilər! – biz Türkiyədən bu duyğu və düşüncələrlə ayrıldıq. Qara dənizi və Türkiyə xatirələrini ürəyimizdə Bakıya gətirdik. Lakin bu xatirələri kağıza köçürmək və onları hamının, bütün oxucuların da ürəyini titrədən bir yaşantıya çevirmək Asif Rüstəmliyə, mənim gənc həmkarıma, Ankara səfərinin istər təşkilində, istərsə də unudulmaz tarix və yaddaş kimi başa çatmasında ürəyinin istisini, düşüncəsinin, fikrinin işığını və enerjisini əsirgəməmiş istedadlı alimə nəsib olmuşdur. Mən bu qeydləri oxudum, Ankara səfərinin bütün xoş həyəcanlarını yenidən yaşadım və Türkiyəyə bu təkrar, bu ikinci səfər üçün artıq yalnız ona – Asifə

minnətdar oldum. Güman edirəm ki, Asifin bu ilk kitabına məhrəm və aşina olacaq bütün digər oxucular da eyni hissləri keçirəcək və bu maraqlı ədəbi səfər üçün minnətdarlığı eyni səmimiyyətlə təkrar edəcəklər….

**Yaşar Qarayev,**
***professor***



Asif Rüstəmlinin «Cəfər Cabbarlı. Həyatı və mühiti» adlı kitabının təqdimat mərasimində akademik Bəkir Nəbiyev bu əsəri 7-dən 77-yə bütün Azərbaycan cəmiyyəti üçün, bütün ziyalılar üçün «əziz kitab» adlandırmış və qeyd etmişdir ki, Asif Rüstəmlinin bu kitabının onurğasını indiyədək elmə məlum olmayan zəngin faktlar təşkil edir.

**Bəkir Nəbiyev,**
***akademik***



C.Cabbarlı ev muzeyinin direktoru ***Gülarə Cabbarlı*** Asif Rüstəmlinin «Cəfər Cabbarlı. Həyatı və mühiti» adlı kitabda toplanan fkademikaktların bu vaxta kimi heç kəsə məlum olmadığını bu sözlərlə ifadə etmişdir: - Bəlkə anamın da bilmədiklərini Asif müəllim tapıb-toplayıb bu kitabda vermişdir.



Asif Rüstəmli Azərbaycan ədəbiyyatşünaslığının çox tanınmış, zəhmətkeş və fədakar nümayəndələrindən biri, onun C.Cabbarlı haqqında tədqiqat əsəri isə ədəbiyyatşünaslıq elmində hadisədir. Tədqiqatçı mötəbər mənbələrə, məxəzlərə istinad etməli, ortaya orijinal və sanballı, qalıcı bir elmi əsər qoymalıdır. Asif Rüstəmli son 20 ildə arxivlərdə, kitabxanalarda, muzeylərdə Azərbaycan ədəbiyyatının naməlum qatlarını üzə çıxarmaq üçün ardıcıl olaraq iş aparır. Bunun nəticəsi kimi o, C.Cabbarlı irsinin bizə məlum olmayan bütün irsini üzə çıxarmış, tamamlamışdır ki, bu da Asif Rüstəmlinin Azərbaycan ədəbiyyatşünaslığı elmi qarşısında xidmətidir.

**İsa Həbibbəyli,**
***akademik***



İndi tam əminliklə demək olar ki, Asif yorulmaz axtarışları, naməlum həqiqətlərin üzərindən məchulluq pərdəsini qaldıran tədqiqat və araşdırmaları ilə Qulam müəllimin və keçdiyi böyük yolda ona inanan, etimad göstərən yaşlı və gənc həmkarlarının, ölkə ədəbi ictimaiyyətinin rəğbət və hörmətini qazanmışdır.

***

Ən başlıcası isə səmimi və xeyirxah insandır. Həsəd, paxıllıq hissindən uzaqdır. Dostun uğuruna sevinməyi bacarır. Ən kiçik yaxşılığı da dəyərləndirir. Həmkarları haqqında sevgi ilə, ürək genişliyi ilə danışır. Həmişə köməyə, yardıma ehtiyac olan yerə tələsir. Çətinliklərlə üzləşsə də, şikayətlənməyi sevmir. Sabit, sadiq dövlətçilik mövqeyi ilə seçilir.

**Vilayət Quliyev,**
**filologiya elmləri doktoru**



Sizin Cəfər Cabbarlıya həsr olunmuş elmi əsərləriniz yalnız Cabbarlışünaslığın deyil, öz elmi siqləti ilə ümumiyyətlə müasir ədəbiyyatşünaslığımızın uğurlarıdır. Siz bu gün də bir gənclik həvəsi ilə axtarır, tapır və tədqiqatlarınızın yeni-yeni ədəbi nəticələrini ədəbiyyatşünaslığımızın faktına çevirirsiniz.

**Elçin,**
***Xalq yazıçısı***



Asif Azərbaycan ədəbi-tənqidi və ədəbiyyatşünaslığı tarixində xüsusi rəğbət və ehtiramla qəbul olunan toplayıcı, tərtibçi, tədqiqatçı və naşir tipini əməlində və şəxsiyyətində uğurla birləşdirən alimdir. Asif Rüstəmlinin C.Cabbarlı irsinin tədqiqi sahəsindəki uğurlarını "təkcə cabbarlışünaslığa deyil, ədəbiyyat və mədəniyyət tariximizə hədiyyə" adlandıran prof. bu qənaətdədir ki, "Susmaz duyğuların səltənətində" kitabı ilə A.Rüstəmli ilk dəfə C.Cabbarlını "Azərbaycan sovet dramaturgiyasının banisi" kimi təqdim edən süni, marksist

konsepsiyadan əl çəkərək onun Azərbaycanın milli varlığından qopan, susmaz duyğuların çox istedadlı tərənnümçüsü kimi təqdim edir.

**Nizaməddin Şəmsizadə,**
***professor***



**Elnarə AKİMOVA:**

**Missiya**

Asif Rüstəmlinin mənbələrə əsaslanaraq, arxivdə, əlyazmaların tozunu udaraq hasilə gətirdiyi əsərlər əsl alim örnəyinin nümunəsidir. Onun tədqiqatçı üslubunda milli-ədəbi fakt bədii-estetik arxetipdən kənar dərk olunmur. Əksinə, zaman, ədəbi mühit və sənətkarlıq məsələlərinin bir-birinə çulğaşmış şəkildə təcəssümü ona hadisənin, faktın etnik-tarixi tipini - genotipini müəyyənləşdirməyə imkan yaradır. Belə olduğu üçündür ki, istər Bayraməli Abbaszadə, Mirzə Bala Məmmədzadə irsinin və XX əsrin əvvəllərinin bir çox ədəbi proseslərinin öyrənilməsində, istərsə də çağdaş dövrümüzdə Mir Cəlal yaradıcılığının araşdırılması yönündə axtarışlarında, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun tarixi inkişaf mərhələlərinin tədqiqində onun nəzəri marağının hədəfində milli ədəbi fikrin immanent inkişaf qanunauyğunluğunu görmək çətin olmur.

Bütün bunlarla bərabər, Asif Rüstəmli imzasını səciyyələndirən əsas amil Cəfər Cabbarlı irsinə verdiyi dəyər və sanbal, onun layiqli, yorulmaz araşdırıcısı kimi tanınmasıdır. Ümumiyyətlə, XX əsrin əvvəllərində yaşayan sənətkarların bir qisminin dövrün fəci durumuna - ömür nakamlığına, tale qırıqlığına, sərt və ideoloji həmlələrə qurban getmələrinə baxmayaraq, məhz araşdırmaçılar baxımından bəxtləri gətirib. Onlara oğul qədər mənəvi varislik edən tədqiqatçılar qazanıblar. Məsələn, bu gün Cəlil Məmmədquluzadə deyəndə hamıdan əvvəl İsa Həbibbəylini, Əhməd Ağaoğlu dedikdə Vilayət Quliyevi, Əli bəy Hüseynzadə deyəndə Azər Turanı, o cümlədən Cəfər Cabbarlı deyəndə Asif Rüstəmlini düşünürük. Proses yalnız onlar haqqında kitab hazırlamaq, üstünə adın yazılması ilə bitmir ki... Mənəvi varislik haqqına tapınaraq görülən işlərin yükü ağırdır - sənətkarın irsini zamanın xərabələri altından çıxarıb onun çağdaş dəyərlər müstəvisində gərəkliyini göstərmək, bütün aspektləri, yeni elmi meyilləri ilə dərkinə nail olub ədəbi-estetik zaman dövriyyəsinin sonrakı axarına qata bilmək, yeni mərhələ üçün nəzəri perspektiv açıb filoloji istiqamət və

baxışı dəyişməyə nail olmaq... Bu baxımdan, Asif Rüstəmlinin alim olaraq missiyası ləyaqətli şəkildə həm bitib, həm də yola davam etməkdədir.

Yaş artıq 70-dir! Bu yaşın zirvəsindən gələcəyə qürurla salam verməyə dəyər!



**Vaqif YUSİFLİ:**

**İşıqlı Adam**

Asif Rüstəmli ilə tanışlığım səksəninci illərdən başlanıb, "Azərbaycan" jurnalında onun ilk yazılarından birinin çapına kömək etmişəm. O yazı mollanəsrəddinçi şair Bayraməli Abbaszadədən idi. Sonralar da Asif "Azərbaycan" jurnalında tez-tez yazılarını çap etdirdi, həmişə də bu yazıların ilk oxucusu mən oldum.

Asif bir tədqiqatçı kimi, çox işləkdir, mən bu mənada onu Qulam Məmmədlinin, Əliəjdər Səidzadənin ardıcılı hesab edirəm. O, Azərbaycan ədəbiyyatşünaslığında hal-hazırda 1 nömrəli cabbarlışünasdır. Cabbarlının tərcümeyi-halında, ömür yolunda elə səhifələr var ki, onları ilk dəfə Asif açıqlayıb. Asif 1918-1925-ci illərin ədəbi səhifələrinin qaranlıq qalan əksər nöqtələrini işıqlandırıb. Yeri gələndə müasir ədəbiyyatşünaslığın problemlərindən də yazır. Asifə xas olan bir cəhəti də vurğulamaq istəyirəm. O, çox səliqəli alimdir, yəni faktların əsirinə çevrilməyərək yalnız o faktların bu gün üçün nə dərəcədə əhəmiyyətli olduğuna çalışır.

Dostluqda da sədaqətlidir. Fəxr edirəm ki, onunla eyni şəhərdə yaşayır, eyni ədəbi mühitdə çalışırıq. 70 yaş nədir ki? Neçə il əvvəl gördüyüm Asif Rüstəmli heç dəyişməyib. Qoy elə-belə qalsın, qocalmasın!



**Bədirxan ƏHMƏDLİ:**

**Alim Ömürlüyü**

Filologiya elmləri doktoru, professor Asif Rüstəmli çağdaş Azərbaycan ədəbiyyatşünaslığının ağırlığını çiyinlərində daşıyan alim-lərimizdəndir. Onun yaradıcılığında ədəbiyyatşünaslıq iki istiqamətdə - nəzəri və praktik cəhətdən inkişaf edib. Bu mənada Asif Rüstəmlini mən F.Köçərlidən başlayan A.Sur, Ə.Abid, İ.Hikmət, B.Çobanzadə, F.Qasımzadə, H.Araslı, M.Rəfili ilə davam edən klassik tədqiqatçılar

sırasına daxil edirəm. Son dərəcə səbr və mətanətlə ədəbiyyatımızın işlənilməyən, işlənilməsi vacib problemlərini aşkara çıxarmaq, ədəbiyyatımızdakı yerini, mövqeyini təyin etmək missiyası çox zaman onun üzərinə düşür. Böyük dramaturqumuz Cəfər Cabbarlının yaradıcılığı iki ədəbiyyatşünasın - görkəmli ədəbiyyatşünaslar Məmməd Arif və Asif Rüstəmlinin araşdırmaları ilə tamamlanır. Cabbarlışünas tədqiqatçı alim M.Arifdən sonra onun bir neçə pyesini, hekayələrini, şeirlərini üzə çıxarmış və yaradıcılığını ölkə hüdudlarından kənarda belə tanıtmışdır. Otuz ildən çoxdur ki, C.Cabbarlı yaradıcılığı A.Rüstəmli tədqiqatlarında təhlil və tədqiq olunur, bədii irsi bütövləşdirilir, əsərləri nəşrə hazırlanır.

Asif Rüstəmli həm də Bayraməli Abbaszadə (Hammal) yaradıcılığının araşdırıcısı kimi tanınır. XX əsr Azərbaycan satirik şeirinin bu görkəmli nümayəndəsi haqqında monoqrafiya yazmışdır. Azərbaycan mühacirətinin görkəmli nümayəndəsi Mirzəbala Məmmədzadənin həyat və yaradıcılığı haqqında məqalələri, monoqrafiyaları bu sahədə atılan ilk addımlardandır. Ədəbi ictimaiyyət onu həm də mətbuat araşdırıcısı kimi tanıyır. Azərbaycan mətbuatının XX əsr mərhələsinin inkişaf yolu və problemləri onun araşdırmalarında öz əksini tapıb.

Professor Asif Rüstəmlinin fəaliyyətinin başqa bir istiqaməti heç də tədqiqatçılığından geri qalmayan müəllimliyi, auditoriyalarda tələbələrlə ünsiyyət qurması, onları gələcəyə hazırlamasıdır. Elmi rəhbər kimi bir çox gənc tədqiqatçılar yetirmişdir. A.Rüstəmlinin monoqrafiyaları ilə tanış olduqda məhsuldarlığın və elmi axtarışların bir ömrə necə sığışdığının cavabını axtarmalı olur və təəccüblənməyə bilmirsən. Bu, mənalı alim ömürlüyünün bir yoludur; bu yolda dostum Asif Rüstəmliyə uğurlar diləyirəm!..